E-1491

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
Üzvlər N.F.Nəsibova, E.Ş.Qafarov

Etiraz verən iddiaçı-"Societe des Produits Nestle S.A (CH)" şirkəti */ünvan: Avenue Nestlé 55 CH-1800 Vevey (CH)/* nümayəndəsi patent müvəkkili A.V.Əfəndiyevin iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

21.08.2017 il tarixdə "Societe des Produits Nestle S.A (CH)" şirkətinə məxsus "ХРУТКА" əmtəə nişanının beynəlxalq qeydiyyatının 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 22.09.2016 il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili A.V.Əfəndiyev tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində göstərilir ki, aşağıda göstərilmiş əmtəə nişanı Azərbaycan Respublikasında qeydiyyata alınması üçün Madrid Protokolu vasitəsi ilə iddia edilmişdir:

- Nişanın adı: "ХРУТКА"
- Nişanın beynəlxalq qeydiyyatının nömrəsi: 1271512;
- Nişanın qeydiyyat tarixi: 11.09.2015;
- Sinif: 30;
- Mənşə ölkəsində nişanın qeydiyyat tarixi və nömrəsi: 02.09.2015; 677759
- İsveçrə (CH);
- Nişanın sahibi: "Societe des Produits Nestle S.A." (CH);
- Nişan sahibinin ünvanı: Avenue Nestlé 55 CH-1800 Vevey (CH)

"Patent və əmtəə nişanları Mərkəzi" 22.09.2016-cı il tarixli Qərarı ilə "Əmtəə nişanları və coğrafi göstəricilər Haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin

müddəalarını rəhbər tutaraq və aşağıda göstərilmiş Azərbaycan Respublikasında öncə qeydiyyata alınmış və qüvvədə olan beynəlxalq əmtəə nişanını iddia edilən nişana qarşı qoyaraq iddia edilən 1271512 No-li “ХРУТКА” nişanının əmtəə nişanı qismində qeydiyyata alınmasından imtina etmişdir:

- Nişanın adı: “ХРУМКА KHRUMKA“
- Nişanın beynəlxalq qeydiyyatının nömrəsi: 1124731;
- Nişanın qeydiyyat tarixi: 03.05.2012;
- Sinif: 30;
- Mənşə ölkəsində nişanın qeydiyyat tarixi və nömrəsi: 10.11.2011; 147019;
- Nişanın sahibi: “TOVARYSTVO Z OBMEZHENOIU VIDPOVIDALNISTIU MMD”
- (UA);
- Nişan sahibinin ünvanı: vul. Oblisky, 129, m. Dolyna Ivano-Frankivs'ka obl.
- 77503 (UA)

1271512 No-li “ХРУТКА” nişanının sahibi Societe des Produits Nestle S.A firması tərəfindən Beynəlxalq Büronun yuxarıda göstərilmiş iş ilə bağlı imtina qərarı 21.11.2016-cı il tarixində alınmışdır. İddiaçı yuxarıda göstərilən qeydiyyatdan imtina qərarının aşağıdakı səbəblərdən əsassız və qeyri qanuni hesab edir:

Qəbul olunmuş qaydalara uyğun olaraq:

“Nişanların oxşarlığı” nişanları yaradan, motivlərin qavranması nəticəsində onların üst-üstə düşməsindən irəli gəlir. İddia edilmiş və qarşı qoyulmuş nişanların semantikası və intellektual təfərrüatı müxtəlifdir.

İddia edilən nişan “ХРУТКА” söz nişanından, bir elementdən 6 kiril əlifbası ilə qalın hərflərlə yazılmış nişandan ibarətdir. Nişan səlisliyi, dəqiqliyi, ciddiliyi, lakonikliyi ilə səciyyələnir.

Həmin iddia edilən nişan orijinal qrafik təsvirlə birlikdə də istifadə olunur.




İddia edilən nişanın fonetikası aşağıda verilmişdir.

[ХРУТ-КА]

İddia edilən nişan 2 hecadan (bir qapalı, digər isə açıq) 6 səsdən (2 sait, 4 samit) ibarətdir. Semantika nöqteyi nəzərdən iddia edilən nişan dənli bitkilərdən hazırlanmış səhər yeməyi brendinə dəlalət edir və mahiyyət etibarı ilə ХРУТКА sözü “ХРУСТ” və “МИНУТКА” sözlərinin birləşməsindən yaradılmış uydurma bir sözdür və tez hazırlana bilən, çox vaxt aparmayan səhər yeməyinə dəlalət edir. İddia edilən nişan, bir çox qablaşdırma qablarında ördəyin və ya kiçik ördəyin cizgi filmlərində istifadə olunan təsvirləri ilə yanaşı istifadə edilir.

| | | | | |
|---|---|---|---|---|
|  |  |  |  |  |

İddia edilmiş nişan fərdi intellektual simaya malikdir və bu sima həm nişanla markalanan məhsulun xüsusiyyətləri ilə, həm də istehlakçılar tərəfindən asanlıqla yadda saxlanıla bilən personajla bağlıdır. “Societe des Produities nestle S.A.” qida məhsulları istehsal edən dünyada ən böyük transmilli İsveçrə kompaniyasıdır. Kompaniyanın baş ofisi

İsveçrənin VEVE şəhərində yerləşir. Nestle kompaniyası həll olunan qəhvə, mineral su, şokolad, dondurma, bulyonlar, süd məhsulları, uşaq qidası, ev heyvanları üçün yem, əczaçılıq məhsulları, kosmetika vasitələri və s. məhsullar istehsal edir. Kompaniya 1866-cı ildə Avropada ilk "qatılaşdırılmış süd istehsalı üzrə İngilis-İsveçrə" zavodu açılan zaman təsis edilmişdir. Kompaniyanın fəaliyyət göstərdiyi vaxt ərzində kompaniyanın məhsulunun çeşidi 8500 əmtəə nişanları ilə markalanıb. Kompaniyanın tərkibinə, 83 ölkədə 460 fabrik və sənaye müəssisələri daxildir. Kompaniya Avrasiya ölkələrinə o cümlədən, aşağıda sadalanan ölkələrə məhsul göndərir və bu ölkələrin bir çoxunda törəmə müəssisələrə malikdir: Rusiya, Özbəkistan, Qazaxıstan, Belarus, Azərbaycan, Gürcüstan, Monqolustan, Türkmənistan, Qırğızıstan, Tacikistan və s.

Qarşı qoyulmuş nişan "ХРУМКА KHRUMKA"

İddia edilmiş nişandan fərqli olaraq, qarşı qoyulmuş nişan iki söz elementindən ibarətdir. Qarşı qoyulmuş nişanda yanaşı olaraq müxtəlif iki əlifbanın hərflərindən istifadə edilməsi və bu sözlərinin arasında durğu (vergül) işarəsinin olması, nişanın qavranması zamanı istehlakçılarda əlavə diqqət mərkəzi yaradır. Nişanların eyniliyinin və ya oxşarlığının təyin edilməsi üzrə metodik tövsiyələr kitabçasında (bax: N.P. QREŞNEVA, V.V ORLOVA; MOSKVA 1999) göstərilir ki, "qrafik cəhətdən oxşarlıq nişanların oxşarlığını ya gücləndirə bilər və yaxud əksinə onu zəiflədə bilər". Nişanların yazılışında müxtəlif əlifbaların istifadə edilməsi nəticəsində, onların biri-birinə qarışdırılacaq dərəcədə olmasa inkar edilə bilər. Qarşı qoyulmuş nişanda çox elementli və hərflərin tərkibinin müxtəlif olması, müxtəlif əlifbalardan istifadə edilməsi, qrafik təsvirin xüsusiyyəti, yəni, onun üfüqi olaraq uzunluğu iddia edilməsi nişandan mühüm dərəcədə fərqləndirir, bunun nəticəsində də nişanların biri-biri ilə qarışıq salma dərəcəsinə qədər oxşar olması mülahizəsi əsassızdır. Fonetik nöqteyi-nəzərdən, qarşı qoyulmuş nişanın transliterasiyası aşağıda göstərilmiş tərzdədir.

[хрум-ка   хрум-ка]

Nişan iki sözdən, 4 hecadan (iki qapalı, iki açıq), 12 səsdən (4 sait, 8 samit) ibarətdir. Hecalardan müxtəlifliyini, səs tərkibini, müxtəlif tələffüz artikulyaşlarını nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, iddia edilən və qarşı qoyulmuş nişanlar fonetik nöqteyi nəzərdən oxşar deyil. Nişanların eyniyiliyinin və oxşarlığının yoxlanılması üzrə Metodik tövsiyələrə uyğun olaraq (bax: N.P.Qrişneva, V.V.Orlova; Moskva 1999).

"Nişanların məna cəhətdən oxşarlığı onların qrafik oxşarlığından fərqli olaraq müstəsna kriteriya kimi çıxış edə bilər. Nişanın mənasının olması (və ya bunun olmaması) onların səslənmə oxşarlığına baxmayaraq" müqayisə olunan nişanların oxşar olmamasına dəlalət edə bilər. Qarşı qoyulmuş nişan onun sahibi tərəfindən əlaqəli kompania olan OOO "UKRAİNSKİY KONUS" kompaniyasının fəaliyyəti çərçivəsində müxtəlif içliyə malik olan vafli borucuqlarının markalanması üçün istifadə edilir. Müvafiq olaraq iddia edilən və qarşı qoyulmuş nişanlar müxtəlif çeşidli məhsulların markalanması üçün istifadə edilir. Qarşı qoyulmuş nişan Azərbaycan Respublikası ərazisində istifadə edilmir və bu hal istehlakçılar tərəfindən iddia edilən nişanın və qarşı qoyulmuş nişanın faktiki olaraq biri-biri ilə qarışdırıla biləcəyi ehtimalını istisna edir. Müqayisə edilən 1271512 və 1124731 No-li beynəlxalq qeydiyyata alınmış nişanlar yanaşı olaraq Belarusiyada, Türkmənistanda qeydiyyata alınmışdır. Belə ki, iddia edilən və qarşı qoyulmuş nişanların qrafik, fonetik və semantik və onların intellektual simaları müxtəlifdir, iddiaçı kompaniya dünyada həm adı və həm də məhsulları ilə məhşurdur və iddia edilən nişanı aktiv surətdə istifadə edir. İddia edilən və qarşı qoyulan nişanlar müxtəlif məhsul seqmentləri üçün istifadə edilir və dünyanın bir sıra ölkələrində qeydiyyata alınmışlar. İddia edilən və qarşı qoyulmuş nişanlar istehlakçılar tərəfindən biri-biri ilə qarışdırıla bilməzlər və nəticədə qarşı qoyulmuş nişan iddia edilmiş nişana onun əhatə etdiyi bütün əmtəələri üzrə hüquqi mühafizə verilməsi üçün maneə ola bilməz. Bütün yuxarıda verilmiş məlumatların, dəlillərin, arqumentlərin nəzərə alınması, iddia edilən 1271512 No-li "ХРУТКА" adlı əmtəə nişanına onun 30-cu sinifdə əhatə etdiyi bütün əmtəələr üzrə hüquqi mühafizə verilməsi Apelyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etmişdir ki, “ХРУТКА” əmtəə nişanı (1271512 beynəlxalq qeydiyyat) 11.09.2015-ci il tarixdə 30-cu sinifin əmtəələri üzrə “Societe des Produits Nestle S.A (CH)” şirkətinin adına qeydiyyata alınmış və həmin qeydiyyat 05.11.2015 (2015/43 Gaz) tarixində Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Ekspertizanın rədd qərarında “ХРУТКА” əmtəə nişanının (1271512) qeydiyyata alınmasından imtina edilməsi üçün əsas kimi Azərbaycan Respublikası ərazisində daha əvvəl “TOVARYSTVO Z OBMEZHENOIU VIDPOVIDALNISTIU “MMD” (UA) adına qeydiyyata alınmış 1124731 saylı “ХРУМКА KHRUMKA“ əmtəə nişanına oxşar olması göstərilmişdir.

İddiaçı “Societe des Produits Nestle S.A (CH)” şirkəti “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsaslanaraq 07.12.2017 il tarixində imzalanmış Razılıq məktubunu Apellyasiya şurasına təqdim etmişdir. Həmin Razılıq məktubuna görə “TOVARYSTVO Z OBMEZHENOIU VIDPOVIDALNISTIU MMD” şirkəti, “Societe des Produits Nestle S.A (CH)” şirkətinə onun “Хрутка (söz)” (1271512) əmtəə nişanının Azərbaycan Respublikası ərazisində 30-cu sinfin əmtəələri ilə istifadəsinə və qeydiyyata alınmasına razılıq verir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili A.V.Əfəndiyevin çıxışını dinləyib hesab edir ki, etiraz təmin olunmalıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 1-ci, 3-cü hissələrini rəhbər tutaraq və Razılıq məktubu nəzərə alaraq Apellyasiya şurası

Qərara aldı:

1. “Societe des Produits Nestle S.A (CH)” şirkətinə məxsus “ХРУТКА” adlı əmtəə nişanının 1271512 saylı beynəlxalq qeydiyyatının 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 22.09.2016-cı il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili V.F.Əfəndiyev tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.
2. “ХРУТКА” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 30-cu sinfin əmtəələri üzrə 1271512 saylı beynəlxalq qeydiyyata alınmasının rədd edilməsi barədə ekspertizanın 22.09.2016-cı il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.
3. “ХРУТКА” adlı əmtəə nişanının 30-cu sinfin əmtəələri üzrə 1271512 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.
4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

E.Ş.Qafarov